Elm: xüsusi buraxılış .- 2025.-18 noyabr (№36-37).- S.16.

# Akademiya Muzeyinin açılışı



**Noyabrın 4-də AMEA-nın Rəyasət Heyətində Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinin Tədbirlər planı çərçivəsində Akademiya Muzeyinin açılışı olub.**

Açılış mərasimində AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri və Akademiyanın 80 illik yubiley tədbiri çərçivəsində ölkəmizdə səfərdə olan dünyanın bir sıra Elmlər Akademiyalarının və nüfuzlu beynəlxalq elmi qurumlarının rəhbər heyəti və nümayəndələri iştirak edib, xatirə şəkilləri çəkdiriblər.

Həmçinin qonaqlar AMEA-nın Meridian zalı ilə də tanış olublar.